Ədəbiyyat qəzeti
6 iyul 2024-cü il


# Turan dünyasına Turan sevdasıyla




Görkəmli ədəbiyyatşünas alim, Dövlət mükafatı laureatı Nizaməddin Şəmsizadənin "Turan: Tarixi gerçəklik və müasirlik" adlı kitabı "Elm və təhsil" nəşriyyatı tərəfindən nəşr edilib.

Filologiya üzrə fəlsəfə doktoru, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turanın redaktorluğu ilə çap olunan "Bu adi və sadə kitab Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadənin doğma türk millətinə məhəbbətindən, Turan idealına sədaqətindən yaranıb. Kitab bütün dünyada 40 adla yaşamağa vadar olunmuş türk qövmünə ünvanlanıb, türkü sevənlər üçün nəzərdə tutulub".

Çoxsaylı mötəbər mənbələrə istinadən yazılan kitab Azərbaycan Prezidenti İlham Əliyevin "Bizim ailəmiz Türk dünyasıdır" fikrinin elmi-publisistik davamı kimi oxunur.

**Sərvaz**